# Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi



Azərbaycan Respublikasının Prezidenti yanında
Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə
Dövlət Agentliyi

Elektron Hökumətin
İnkişafı Mərkəzi

# SİSTEM 2 FƏRQLİ FORMADA MÜRACİƏT QƏBUL EDƏCƏK

## 1 DÖVLƏT VƏ ÖZƏL TƏŞKİLATLAR TƏRƏFİNDƏN

Dövlət və özəl təşkilatlar sistemə daxil olaraq icazə almaq istədikləri əməkdaş və nəqliyyat vasitələrini qeyd edirlər.

## 2 VƏTƏNDAŞLAR TƏRƏFİNDƏN

Vətəndaşlar təlimata uyğun olaraq hansı məqsədlə evdən çıxmaq istədiklərinə dair bildiriş və ya icazə üçün öz mobil telefonundan icazənin məqsədini bildirən rəqəmi və şəxsiyyət vəsiqəsinin seriya nömrəsini SMS-lə göndərir.

Sistemə daxil edilmiş məlumatlar servis vasitəsi ilə DİN-ə ötürülür.



# DÖVLƏT VƏ ÖZƏL TƏŞKİLATLAR TƏRƏFİNDƏN MÜRACİƏTLƏRİN GÖNDƏRİLMƏSİ

Dövlət və özəl təşkilatlar aşağıdakı keçiddən istifadə edərək ASAN Login vasitəsi ilə sistemə daxil olurlar.

- https://icaze.e-gov.az

1

Dövlət və ya özəl təşkilatların möhür səlahiyyətli şəxsi imza (Asan imza və ya Elektron imza) sertifikatı ilə ASAN Login-ə daxil olur.






1

**Yeni icazə yarat** düyməsini sıxaraq icazəni daxil etmək üçün formanı açır.

Açılmış formada məlumatların daxil edilməsi istənilir.



1



Nəqliyyat vasitəsi barədə məlumatlar

Dövlət qeydiyyat nişanı

İcazə barədə məlumatlar

Başlama tarixi

Bitmə tarixi

İcazəyə əsas verən sənədin tarixi

İcazəyə əsas verən sənədin nömrəsi

Buraxılışın növü

İşlə bağlı

Əməkdaşın fəaliyyət göstərəcəyi ərazilər

Qeyd

Təsdiqlə

Yadda saxla

© 2020. Elektron Hökumətin İnkişafı Mərkəzi

2

1. Təşkilat formanı doldurandan sonra təsdiqlə seçimi edirsə, o zaman daxil edilmiş forma **DİN-ə servis vasitəsi ilə avtomatik qaydada ötürülür** və qurumun həmin məlumat üzərində dəyişiklik etmə imkanı olmur.

2. Təşkilat təsdiqlə seçimini seçməyibsə, sonradan "İcazələr" menyusunda təsdiqləyənədək həmin icazə məlumatlarını dəyişə və silə bilər.

3. Sistemə daxil olmuş təşkilat əməkdaşı 4-cü bəddə göstərilmiş siyahıda sətrlərin üzərində klik etməklə icazə məlumatlarını baxış rejimində də aça bilər.



3

Sistemə daxil olmuş təşkilatlar, qeydiyyat bitdikdən sonra əsas səhifədə icazə verilmiş əməkdaş və nəqliyyat vasitələrinin sayı olan bölməni görür.



4

İcazələr səhifəsində təşkilat icazələr siyahısını görür.



# VƏTƏNDAŞLAR TƏRƏFİNDƏN MÜRACİƏTLƏRİN GÖNDƏRİLMƏSİ



## 8103 XİDMƏTİ

## 8103 XİDMƏTİ

**SMS məlumatın mətnində aşağıdakı 3 indeksdən biri və şəxsin şəxsiyyətini təsdiq edən məlumat qeyd edilməlidir.**

| SMS KOD | MƏQSƏD |
|---|---|
| 1 | təxirəsalınmaz tibbi zərurətlə və hər hansı bir qrafik üzrə müalicə almaqla əlaqədar;<br>(icazə rayon və şəhər daxilində 2 saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurununu müddəti nəzərə alınmaqla verilir, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir); |
| 2 | Ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə 2 saat müddətinə gündə 1 dəfə verilir); |
| 3 | yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini tərk etmək üçün. |

# ŞƏXSİYYƏTİ TƏSDİQ EDƏN SƏNƏDLƏR

1. Azərbaycan Respublikasının vətəndaşları üçün – şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi *(məsələn, AZE11111111)*

2. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün – Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin seriyası və nömrəsi *(MYİ (DYİ) 1111111)*

3. Azərbaycan Respublikası ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün – müvəqqəti olma müddətinin uzadılması barədə qərarın seriyası və nömrəsi *(MOM 1111111)*

# NÜMUNƏ

Nümunə: ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və post xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün **2 AZE 1111111** məzmunlu SMS məlumatı göndərilməlidir.



# SİSTEMİN İŞLƏMƏ PRİNSİPİ

**Müraciətin göndərilməsi**

Vətəndaşın mobil nömrəsindən daxil olmuş sorğu Elektron Hökümətin icazələr sisteminə göndərilir

**Müraciətin emalı**

Vətəndaşın onun sorğusuna cavab göndərilir

**Cavablandırma**

İcazələr sistemi qeydə aldığı vətəndaş barəsində məlumatı DİN-nin müvafiq icazə sisteminə göndərir

**Nəzarət və monitorinq**

Polis (DİN) əməkdaşları xüsusi cihazlar vasitəsi ilə icazə alınmış şəxslər bəsində məlumatların yoxlanılmasını təmin edir.

# ƏLAVƏ QEYDLƏR

- Elektron Hökumət informasiya sistemindən gələn cavab SMS məlumatında icazənin qüvvədə olduğu müddət göstərilir. Şəxs yaşayış yerini yalnız **müsbət cavab** aldıqdan sonra tərk edə bilər

- Həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda yaşayış yerini tərk etmək üçün SMS məlumatın göndərilməsi tələb olunmur. Həmçinin şəxslər məhkəməyə və ya hüquq mühafizə orqanlarına çağırıldıqda SMS göndərilmədən yaşayış yerini tərk edirlər. Bu halda onlar məhkəməyə və ya hüquq mühafizə orqanına çağırılmalarına dair sənədi polis əməkdaşlarının tələbi ilə onlara təqdim etməlidirlər.

- SMS icazə sistemindən istifadə qaydaları və SMS göndərilməsi ilə bağlı yaranan çətinliklərlə əlaqədar “ASAN Xidmətin” **9108 Çağrı Mərkəzin**ə müraciət edilə bilər.

- Müvafiq dövlət qurumları və özəl hüquqi şəxslər əməkdaşları barədə, habelə müvafiq könüllülər təşkilatları könüllülər barədə məlumatları “icaze.e-gov.az” portalına **2 aprel 2020-ci il saat 10:00-dan etibarən daxil etməlidirlər.**

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜR EDİRİK

Azərbaycan Respublikasının Prezidenti yanında
Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə
Dövlət Agentliyi

Elektron Hökumətin
İnkişafı Mərkəzi